# Müalicə-Diaqnostika Mərkəzində

Qəbələ Diaqnostika Mərkəzində ümummilli lider Heydər Əliyevin anım günü qeyd edilmişdir.





Tədbiri mərkəzin baş həkimi Bəxtiyar Haqverdiyev asmış və XX əsrin dünya şöhrətli liderlərindən biri Heydər Əliyevin müstəqil Azərbaycan dövlətçiliyinin qurulması, möhkəmləndirilməsi, bu dövlətin dünyaya tanıdılması, nüfuzunun yüksəldilməsi sahəsində müəyyən etdiyi siyasətdən danışmışdır.

Anım mərasimində mərkəzin baş həkiminin müavini Kamal Məmmədov Heydər Əliyevin həyat və fəaliyyəti haqqında geniş məruzə etmiş, xüsusilə Azərbaycan səhiyyəsinin yenidən qurulması, inkişafı məsələləri üzərində dayanmışdır.

Həmçinin məruzədə Heydər Əliyevin davamçısı, cənab Prezident İlham Əliyevin, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın son 10 ildə Azərbaycan səhiyyəsinin, ölkənin sosial-iqtisadi sahədə sürətli inkişafının təmin olunmasında həyata keçirdikləri tədbiirlərdən geniş söhbət açılmışdır. Qəbələ Müalicə-Diaqnostika Mərkəzinin istifadəyə verilməsi, mərkəzin hər cür tibbi avadanlıqla təmin olunması, rayon mərkəzi xəstəxanasının yenidən əsaslı təmir edilməsi, burada həkimlər üçün rahat və səmərəli iş şəraitinin yaradılması son illərdə Qəbələ səhiyyəsinə göstərilən qayğıya bariz nümunədir.

**Nadir ATAKİŞİYEV.**
**Fotolar S. Umuyevindir.**

# «Texniki təhlükəsizlik–aktual suallar» mövzusunda seminar-müşavirə keçirilmişdir

Dekabr ayının 6-da Qəbələ şəhərində Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Sənayedə İşlərin Təhlükəsiz Görülməsi və Dağ-Mədən Nəzarəti Dövlət Agentliyinin «Texniki təhlükəsizlik- aktual suallar» mövzusunda seminar—müşavirəsi keçirilmişdir. Müşavirədə Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Sənayedə İşlərin Təhlükəsiz Görülməsi və Dağ- Mədən Nəzarəti Dövlət Agentliyinin məsul işçiləri, Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Şimal-qərb Regional Mərkəzinin əməkdaşları, Regional Mərkəzin əhatə etdiyi rayonların yerli icra orqanlarının, sənayenin müxtəlif sahələrində çalışan iş adamlarının nümayəndələri və Qəbələ Rayon İcra Hakimiyyətinin məsul işçisi Varis Yaqubov iştirak etmişlər.

Seminar-müşavirəni açan Dövlət Agentliyinin rəis müavini İsmayıl Məşədiyev «Sənaye müəssisələrində texniki təhlükəsizliyin təhlili və qabaqlayıcı profilaktik tədbirlərin görülməsi istiqamətində Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Sənayedə İşlərin Təhlükəsiz Görülməsi və Dağ-Mədən Nəzarəti Dövlət Agentliyinin fəaliyyəti barədə iştirakçıları məlumatlandırdı.

Sonra seminar-müşavirədə qazan, qaldırıcı və energetika qurğularında işlərin təhlükəsiz görülməsinə nəzarət müfəttişliyinin rəisi Ələddin Cəfərov «Şimal-qərb regionunda yerləşən və nəzarət altında olan qazan, qaldırıcı və energetika qurğuları obyektlərində texniki təhlükəsizliyin vəziyyəti», maye və təbii qaz təsərrüfatı obyektlərində işlərin təhlükəsiz görülməsinə nəzarət müfəttişliyinin rəisi Rəfail Hacıyev «Şimal-qərb regionunundа yerləşən və nəzarət altında olan müəssisələrin maye və təbii qaz təchizatı sistemində texniki təhlükəsizliyin vəziyyəti», yerin təkinin mühafizəsi və dağ mədən nəzarəti müfəttişliyinin rəisi Gulağa Quliyev «Şimal-qərb regionunda yerləşən və nəzarət altında olan dağ-mədən obyektlərində texniki təhlükəsizliyin vəziyyəti», kimya, neft-kimya və neft-qaz emalı sənayesində işlərin görülməsinə nəzarət müfəttişliyinin rəisi Üzeyir Namazov, «Şimal-qərb regionunda yerləşən və nəzarət altında olan kimya, neft-kimya və neft-qaz emalı obyektlərində texniki təhlükəsizliyin vəziyyəti», taxıl məhsulları müəssisələrində işlərin təhlükəsiz görülməsinə nəzarət müfəttişliyinin rəisi Ədalət Ağamalıyev «Şimal-qərb regionunda yerləşən və nəzarət altında olan taxıl məhsulları müəssisələrində texniki təhlükəsizliyin vəziyyəti» və Azərbaycan Dövlət Əməyin Mühafizəsi və Təhlükəsizlik Texnikası Elmi-Tədqiqat İnstitunun direktoru Rüştü Səfərov «Sənaye müəssisələrində texniki təhlükəsizliyin təhili və qabaqlayıcı profilaktik tədbirlərin görülməsi məqsədi ilə texniki təhlükəsizlik ekspertizalarının aparılmasının əsas istiqamətləri» mövzularında çıxış etmişlər.





Qeyd edilən hər bir mövzu ətrafında iştirakçılar geniş ekranda videoçarxlara tamaşa etmişlər.

Seminar-müşavirə iştirakçılarının texniki-təhlükəsizlik tədbirlərinin gücləndirilməsi və təmin edilməsi üzrə sualları çıxış edənlər tərəfindən cavablandırılmışdır.

Seminar-müşavirənin sonunda agentliyin rəis müavini İ. Məşədiyev yekun söz söyləmişdir.

**Aslan CƏLİLOV**

# Pnevmakokk peyvəndi

İnfeksion xəstəliklər çox təhlükəli olub ağır formalarda, hətta ölümlə də nəticələnə bilər. Peyvənd isə uşaqlarda yoluxucu xəstəliklərə qarşı immunitet (xəstəliyə tutulmama qabiliyyəti) yaradır. Buna görə də uşaqların bu xəstəliklərin əleyhinə peyvənd olunması vacibdir.

Peyvəndlərin aparılması nəticəsində bir sıra xəstəliklər qlobal səviyyədə aradan qaldırılıb. Azərbaycanda ağır yoluxucu xəstəlik olan poliomelitə yoluxanların sayı Səhiyyə Nazirliyi tərəfindən görülən tədbirlər nəticəsində sıfıra endirilibdir. 2002-ci ildə Ümumdünya Səhiyyə Təşkilatı Azərbaycana «Poliomielitdən azad» ölkə statusunu verib.

Hazırda Azərbaycanda hepatit «B», vərəm, poliomelit, difteriya, göy öskürək, tetanus, B tipli hemofil infeksiya, qızılca, parotit, məxmərək xəstəliklərinə qarşı peyvənd aparılır. 2013-cü il dekabr ayının 1-dən pnevmakokk əleyhinə vaksin tətbiq olunur. Pnevmakokk vaksini uşaqları streptococcus pnevmoniae (pnevmokokklar) tərəfindən törədilən xəstəliklərdən (pnevmoniya, meningit, bakteremiya, orta qulağın otiti, sinusit, bronxit və s.) qoruyur.

Ümumdünya Səhiyyə Təşkilatının məlumatına görə, dünyada hər il 500 mindən artıq 5 yaşa qədər uşaq pnevmakokk xəstəliklərindən dünyasını dəyişir və ən yüksək riskə, xüsusi ilə inkişaf edən ölkələrdə 2 yaşınadək olan uşaqlar məruz qalırlar.

Pnevmokokklar xəstə şəxslərin tənəffüs yolları və sağlam daşıyıcıların burunudlağının ifrazatları ilə birbaşa təmas nəticəsində ötürülür. Vaksinasiya tibbi yardıma imkanı olmayan əhali arasında ölüm və xəstələnmənin qarşısını almağa imkan verir. Vaksinasiya 1 yaşadək uşaqlar arasında aparılır. Hər hansı səbəbdən peyvənddən kənar qalmış uşaqlara peyvəndin tam kursu 2 yaşa qədər aparılmalıdır.

Yoluxucu xəstəliklərin başlıca profilaktika yolu peyvənddir. Peyvəndlərin məhz vaxtında və bütövlükdə aparılması uşaqların sağlamlığını qoruyur. Odur ki, peyvənddən imtina etməyin.

**Sədiyar HÜSEYNOV,**
**Qəbələ GEM-nin epidemiologiya şöbəsinin müdiri, həkim bakterioloq.**